*tika Günüdür*

# Milli Hesablar Sistemi və onun Azərbaycanda tətbiqi

**Beynəlxalq səviyyədə müqayisə edilə bilən iqtisadi statistika məlumatlarının hazırlanmasına rəsmi dairələrin marağının yaranmasını ötən əsrin 20-ci illərinin sonuna aid etmək olar.**

1929 - 1933-cü illərin Böyük iqtisadi depressiyası dövlət orqanlarının bazar iqtisadiyyatının tənzimlənməsi sahəsində iqtisadi siyasətin həyata keçirilməsi üçün zəruri məlumatların, o cümlədən bazar iqtisadiyyatının əsas göstəricilərindən olan milli gəlirin hesablanmasına tələbatını artırmaqla bu işlərin həyata keçirilməsi üçün əlavə stimul yaratmışdır.

1939-cu ildə "World Economic Survey" jurnalında ilk dəfə Millətlər Liqası tərəfindən 1929-1938-ci illər üçün 26 ölkə üzrə hesablanmış milli gəlir göstəriciləri dərc edilmişdir.

İkinci Dünya müharibəsindən sonra beynəlxalq təşkilatların xərclərinin bölüşdürülməsi baxımından ölkələrin milli gəlirləri üzrə müqayisə edilə bilən məlumatlara tələbat yaranmış və bu məsələnin həlli üçün Millətlər Liqası Statistik Ekspertlər Komissiyasının tərkibində Milli gəlir statistikası üzrə xüsusi komitə yaratmışdır.

Qeyd olunan komitənin 1947-ci ildə milli gəlirin və ümumi milli məhsulun hesablanma qaydalarını izah edən məruzəsi dərc edilmişdir. Məruzəyə Con Meyard Keynsin tələbəsi və davamçısı olan, görkəmli ingilis iqtisadçısı Riçard Stounun müasir Milli Hesablar Sisteminin (MHS) konturlarını özündə birləşdirən "Milli gəlirin və əlaqəli toplu göstəricilərin müəyyən edilməsi və hesablanması" ("Definition and measurement of the national income and related totals") adlı işi əlavə edilmişdir.

Bu sənədlərdə bir neçə əsas makroiqtisadi göstəricilərin (gəlirlər, xərclər, yığım və qənaət) hesablanmasına və onlar arasında qarşılıqlı əlaqənin təsvirinə dair metodoloji tövsiyələr verilmiş, hesabların qurulması sxemləri göstərilmişdir.

BMT-nin ekspertlər qrupunun Nyu-Yorkdakı, iqtisadiyyatın və onun səmərəliliyinin təhlilinə imkan verən iqtisadi hesabların tərtib edilməsi üzrə normativ sistemin işlənməsinə həsr olunmuş müşavirəsinin nəticəsi olaraq, 1953-cü ildə "Milli hesablar və köməkçi cədvəllər" ("A System of National Accounts and Supporting Tables") adlı yeni məruzə dərc olunmuşdur. MHS-nin ilk versiyası hesab edilən bu sənəddə hesabların qurulması qaydaları 1947-ci ilin məruzəsi ilə müqayisədə daha aydın və izahlı şəkildə göstərilmişdir.

Məruzənin ikinci versiyası BMT və Beynəlxalq Valyuta Fondu (BVF) tərəfindən bir sıra əlavə və dəyişikliklər edilməklə 1960-cı ildə, 3-cü versiyası isə BVF-nin "Tədiyyə balansına dair metodoloji vəsait"i ilə uyğunlaşdırılaraq 1964-cü ildə dərc edilmişdir.

1968-ci ildə MHS-nin növbəti versiyası nəşr edilmişdir.

1968-ci ilin Milli Hesablar Sistemi iqtisadi statistikanı əhəmiyyətli dərəcədə genişləndirsə də, burada göstəricilərin sabit qiymətlərlə hesablanması, gəlirlərin bölüşdürülməsi, milli sərvət göstəricilərinin formalaşdırılmasına, aktiv və passivlər balanslarına və s. aid bir sıra həll olunmamış məsələlər də qalmışdır.

Bu məsələlərin həll edilməsi istiqamətində beynəlxalq ekspertlər tərəfindən aparılmış tədqiqatların nəticəsi olaraq MHS-nin yeni, 1993-cü il versiyası işıq üzü görmüşdür.

Müasir Milli Hesablar Sistemi - iqtisadi fəaliyyətin müxtəlif aspektlərini səciyyələndirən makro göstəricilərin hesablanması üçün nəzərdə tutulmuş, iqtisadi nəzəriyyənin prinsiplərinə əsaslanan və beynəlxalq səviyyədə uzlaşdırılmış standart tövsiyələr toplusudur. Bu tövsiyələr iqtisadi fəaliyyətin nəticələrini səciyyələndirən mühüm göstəricilərin iqtisadi təhlil, qərarların qəbul edilməsi və iqtisadi siyasətin hazırlanması üçün tələb edilən formatda hesablanmasını təmin edən beynəlxalq standartdır.

Sistemin əsasını iqtisadiyyatın sektorları üzrə qurulan cari əməliyyatlar və yığım hesabları, təsərrüfat subyektlərinin aktiv və öhdəliklərinin qalıqları haqqında məlumatları birləşdirən aktiv və passivlər balansı təşkil edir.

Sistemin hesabları ölkə iqtisadiyyatının inkişafı haqqında ətraflı məlumatları yığcam formada birləşdirir. Bu hesablarda ölkədə həyata keçirilən mürəkkəb iqtisadi fəaliyyəti, həmçinin müxtəlif iqtisadi subyektlər və onların qrupları arasında əlaqələri səciyyələndirən, o cümlədən istehsal prosesində gəlirlərin yaranması və təsərrüfat subyektləri arasında bölüşdürülməsi, son istehlak və ya yığım üçün istifadəsini, iqtisadi aktivlərinin mövcudluğunu, hərəkətini və s. əks etdirən əhatəli və müfəssəl məlumatlar öz əksini tapır.

MHS-nin əsas məqsədi təhlil əsasında iqtisadiyyatın inkişafının qiymətləndirilməsinə imkan verən makroiqtisadi göstəricilər bazasının yaradılması üçün konseptual əsasın və uçot qaydalarının müəyyən edilməsidir. Bu cür məlumat bazasının mövcudluğu səmərəli iqtisadi siyasətin formalaşdırılması və qərarların qəbul edilməsi üçün əsas şərtlərdəndir.

Milli Hesablar Sisteminin ÜDM və əhalinin hər nəfərinə düşən ÜDM kimi bir sıra mühüm göstəricilərdən analitiklər, siyasətçilər, mətbuat nümayəndələri və ümumilikdə cəmiyyət tərəfindən iqtisadi fəaliyyətin və rifahın ümumiləşdirici indikatorları kimi geniş istifadə edilir.

MHS həmçinin milli hesablar statistikası üzrə beynəlxalq səviyyədə qəbul olunmuş konsepsiyalara, təsnifatlara və anlayışlara cavab verən məlumatların beynəlxalq təşkilatlara təqdim edilməsi üçün əsasdır. Bu məlumatlar ümumi daxili məhsul göstəricisinin, habelə investisiyaların, vergilərin və ya dövlət xərclərinin ÜDM-ə nisbəti kimi göstəricilərin beynəlxalq müqayisələri üçün istifadə edilir. Beləliklə, Milli Hesablar Sisteminin məlumatları ölkənin iqtisadiyyatının inkişaf parametrlərini digər ölkələrlə müqayisəsini mümkün edir.

XX əsrin sonunda Milli Hesablar Sistemi iqtisadiyyatda baş verən sosial-iqtisadi proseslərin təsviri və proqnozlaşdırmasına geniş imkanlar yaradan mühüm makroiqtisadi sistemə çevrilmiş, dünyanın əksər ölkələri öz makroiqtisadi göstəricilər sistemlərini bu sistemin metodoloji tövsiyələrinə uyğunlaşdırmışdır.

1991-ci ildə müstəqilliyini bərpa etmiş Azərbaycan Respublikasında iqtisadiyyatın bazar münasibətlərinə keçidi və ölkədə baş verən mühüm sosial-iqtisadi proseslər statistika sisteminin beynəlxalq standartlara keçməsini və müasir iqtisadi şəraitin daha dürüst və əsaslı təhlilinə imkan verən yeni makroiqtisadi göstəricilər sisteminin yaradılmasını şərtləndirmişdir.

Müstəqilliyin ilk illərindən Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsində İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatının dəstəyi ilə planlı iqtisadiyyat dövründə tətbiq edilən Xalq Təsərrüfatı Balansı göstəricilərindən bazar iqtisadiyyatı üçün səciyyəvi olan Milli Hesablar Sisteminə keçid başlanmışdır.

İlkin mərhələdə MHS-nin əsas göstəricilərindən olan ümumi daxili məhsul göstəricisinin hesablanması, 1995-ci ildən etibarən isə MHS-nin digər göstəricilərinin və hesablarının işlənməsi həyata keçirilmişdir.

Qeyd etmək lazımdır ki, ölkədə MHS-nin göstəricilərinin formalaşdırılması üçün əsas məlumat mənbəyi Dövlət Statistika Komitəsində statistikanın ayrı-ayrı sahələri üzrə hazırlanan məlumatlardır. Buna görə də, MHS göstəricilərinin keyfiyyəti statistikanın bütün sahələri üzrə hazırlanan məlumatların təkmilləşdirilməsi və MHS-1993-ün metodologiyasına uyğunlaşdırılması ilə sıx bağlı olmuşdur.

Ölkə iqtisadiyyatında bazar münasibətlərinin inkişafı, statistik göstəricilərinin yığılması və işlənilməsi üsullarının, həmçinin bütövlükdə uçot sisteminin beynəlxalq standartlara yaxınlaşdırılması sayəsində milli hesablar statistikası göstəricilərinin keyfiyyəti də ilbəil təkmilləşmişdir.

ÜDM göstəricisinin əhatəliliyinin təmin edilməsi məqsədilə 1998-ci ildən başlayaraq, bu göstəricinin həcmində müşahidə olunmayan iqtisadiyyat üzrə qiymətləndirmələr də nəzərə alınmağa başlanmışdır.

Hazırda Dövlət Statistika Komitəsində Milli Hesablar Sisteminin iqtisadiyyatın sektorları üzrə cari əməliyyatlar və yığım hesabları tərtib edilərək illik dövriliklə dərc edilir.

Milli hesablar sisteminin ölkədə tətbiqinin mühüm mərhələlərindən biri də 2001-ci il üçün 105 məhsul və xidmət qrupu üzrə ehtiyatların yaranması və istifadəsini əks etdirən "xərclər-buraxılış" cədvəllərinin tərtibi olmuşdur.

"Xərclər-buraxılış" cədvəlləri iqtisadiyyatın strukturunun, sahələrarası əlaqələrin və ümumi daxili məhsulun istehsal və istifadəsi strukturunun ətraflı təhlilinin əsasını təşkil edir və beynəlxalq aləmdə qəbul olunmuş praktikaya görə hər 5 ildən bir tərtib edilməlidir. Beləliklə, Azərbaycanda növbəti "xərclər - buraxılış" cədvəlləri 2006-cı və 2011-ci illər üçün tərtib edilmişdir.

Qeyd olunduğu kimi, Milli Hesablar Sistemi istifadəçilərə iqtisadi fəaliyyətin ayrı-ayrı mərhələləri və müxtəlif aspektləri haqqında ətraflı və dolğun məlumatlar təqdim edir. Lakin, Sistemin tələblərinə tam riayət etməklə onun göstəricilərinin hesablanması üçün lazım olan məlumatlar bir qayda olaraq illik dövriliklə mövcud olduğundan bu göstərici və hesablar illik dövr üçün hazırlanır.

MHS-nin illik göstəriciləri dəqiq və əhatəli olmaqla iqtisadiyyatın strukturunu və yaranmış uzunmüddətli tendensiyaları əks etdirir. İllik milli hesabların qısa müddətlərdə baş verən iqtisadi prosesləri izləmək, iqtisadi inkişafın dönüş nöqtələrini vaxtında aşkar edərək operativ qərarlar qəbul etmək, proqnozlar tərtib etmək üçün istifadə imkanları məhduddur.

90-cı illərdə dünyanın ayrı-ayrı ölkələrində və beynəlxalq səviyyədə müşahidə edilən maliyyə böhranları mühüm makroiqtisadi göstəricilər üzrə operativ məlumatların hazırlanması problemini ön plana çəkmişdir. Bu fonda 2000-ci ildə iqtisadi inkişafın əhəmiyyətli indikatorlarından olan rüblük ÜDM göstəricisinə dair məlumatların formalaşdırılması üzrə beynəlxalq tövsiyələr hazırlanmış və dünyada geniş tətbiqinə başlanılmışdır. Rüblük göstərici əhatə və keyfiyyət baxımından illik göstəricidən bir qədər geri qalsa da, istifadəçiləri iqtisadiyyatın cari vəziyyəti haqqında operativ məlumatlarla təmin etmək imkanına malikdir.

2008-ci ildə Beynəlxalq Valyuta Fondunun dəstəyi ilə Dövlət Statistika Komitəsində ÜDM-in rüblük göstəricilərinin dinamika sıraları hazırlanaraq ilk dəfə dərc edilmişdir.

1993-cü ilin Milli Hesablar Sisteminin qəbul edilməsindən keçmiş dövr ərzində dünya ölkələrinin iqtisadiyyatında əhəmiyyətli dəyişikliklər baş vermişdir. Bunlar əsasən istehsal prosesində informasiya və kommunikasiya texnologiyalarının artan rolu, qeyri-maddi aktiv və xidmətlərin əhəmiyyətinin artması, milli iqtisadi sistemlərin qloballaşması və sosial islahatlarla bağlıdır. Bu dəyişikliklər statistik məlumatların formalaşmasına düzəlişlərin edilməsini, təsnifatlara, nəzəri konsepsiyalara yenidən baxılmasını tələb edirdi. Bu məqsədlə BMT-nin Statistika Komissiyası, Dünya Bankı, BVF və digər beynəlxalq təşkilatlar 1993-cü ilin Milli Hesablar Sistemini (MHS-93) xeyli yeniləşdirərək onun MHS-2008 adlandırılan yeni versiyasını hazırlamışlar. MHS-93-ün 2003-cü ildən başlamış yeniləşdirilməsi prosesində maliyyə aktivlərinin və vəsaitlərinin, sığorta fəaliyyətinin, qeyri-maliyyə aktivlərinin ölçülməsi və milli hesablar sistemində əks etdirilməsi, xüsusi pensiya təminatı proqramları, dövlət sektorunun əməliyyatları, beynəlxalq əməliyyatlar, institusional vahidlər və təsnifatlara dair 44 suala yenidən baxılmışdır. Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi 2009-cu ildə MHS-2008-dəki yeniliklərin tətbiqi istiqamətində işlərə başlamışdır.

2009-cu ilin aprel ayında Komitədə "2009-2011-ci illərdə Milli hesablar statistikası üzrə göstəricilərin təkmilləşdirilməsinə dair tədbirlər planı" təsdiq edilmiş, bu tədbirlər planının məqsədi yeniləşdirilmiş məlumat mənbələri əsasında MHS-93-ün tətbiqi ilə bağlı çatışmazlıqların aradan qaldırması, MHS-2008-in yeni tövsiyələrinin tətbiqi üçün metodoloji və məlumat bazasının hazırlanması, habelə MHS-nin göstəricilərinin hesablanmasında istifadə olunan baza statistikasının təkmilləşdirilməsi olmuşdur. Bu istiqamətdə işlər 2012-2015-ci illərdə davam etdirilmiş, əsas kapitalın istehlakı, elmi-tədqiqat fəaliyyəti üzrə xidmətlərin, maliyyə vasitəçilərinin şərti hesablanmış xidmətlərinin, sığorta xidmətlərinin göstərilməsi və istifadəsi göstəriciləri, maliyyə hesabının, maliyyə korporasiyaları və dövlət idarəetmə orqanları üzrə sektoral hesabların məlumatları təkmilləşdirilmiş, MHS göstəricilərinin hesablanmasında istifadə edilən baza statistikasının keyfiyyəti yaxşılaşdırılmışdır.

2017-ci ilin sonunadək MHS-2008-in tətbiqi prosesinin tam başa çatdırılması qarşıda duran əsas vəzifələrdən biridir.

**Nuru SÜLEYMANOV,**
**Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin Milli hesablar və makroiqtisadi göstəricilər statistikası şöbəsinin müdiri.**